**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**“Azərbaycanda azad rəqabətin mövcud vəziyyəti və ölkə iqtisadiyyatına təsiri”**

**No: 09/26/105**
**13.05.2009**

Azərbaycan – Türkiyə İş Adamları Birliyi (ATİB) Azərbaycanda fəaliyyət göstərən iş adamlarının iqtisadi və sosial sahədə informasiya ilə təminatını yaxşılaşdırılmaq, eləcə də ölkənin inkişaf prioritetlərinə uyğun fəaliyyətlərinə dəstək vermək məqsədi ilə 2008-ci ildən müvafiq tədqiqat proqramı həyata keçirməkdədir. Bu proqram çərçivəsində “Azərbaycanda azad rəqabətin mövcud vəziyyəti və ölkə iqtisadiyyatına təsiri” mövzusunda 13 may 2009-cu ildə ATİB ofisində ictimai müzakirəsi təşkil edilmişdir.

Araşdırmanın əsas məqsədi Azərbaycanda rəqabət mühitinin istər dövlət üçün, istərsə də şirkətlər üçün xüsusi önəmə malik ünsürlərinin nədən ibarət olmasını müəyyən etməkdir.

Araşdırmada ilk öncə Azərbaycanda rəqabət mühitinin hüquqi əsasları nəzərdən keçirilmiş, habelə ölkədə rəqabət mühitinin dövlət tənzimlənməsinin institusional bazası da araşdırılmışdır. Azərbaycanda rəqabət bazarının təhlili bir neçə nümunə üzərində qurulmuşdur. Ölkə bazarında rəqabət mühitinə ilkin baxış sığorta bazarından başlanmışdır. Bazarın təhlilinin dolğunluğunu təmin etmək məqsədi ilə sığorta bazarında fəaliyyət göstərən ekspertdən istifadə edilmişdir. Bazar analizinin yekunu olaraq, Azərbaycan bazarında rəqabət mühitinin əsas özünəxas ünsürü kimi çıxış edən qeyri-iqtisadi dəstək anlayışının nəzəri-praktik çərçivəsi genişləndirilmişdir. Ümumi bazar analizindən sonra, Azərbaycan bazarında mütəmadi olaraq qarşılaşılan haqsız rəqabət halları, onların səbəbləri, şirkətlərin davranış qaydaları nümunələrlə göstərilmişdir. Araşdırma çərçivəsində rəqabət mühitinin kəmiyyət göstəricisi olaraq bazar payları ilə yanaşı, əsas hesablama aləti kimi Herfindal-Hirşman indeksindən istifadə edilmişdir. Tədqiqatın sonunda həm sahibkarlar, həm də hökumət üçün praktik əhəmiyyətli təkliflər paketi yer almaqdadır.

Qeyd edək ki, ATİB artıq tədqiqat proqramı çərçivəsində “Azərbaycanın səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perspektivləri”, “Azərbaycanın maliyyə sektoru haqqında hesabat” mövzulu tədqiqatı ictimaiyyətə təqdim etmişdir və yaxın zamanlarda və “Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri”, “Azərbaycanın xarici ticarət rejimi və ÜTT ilə əlaqələrin perspektivliyi”, “Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı” mövzusunda həyata keçirdiyi araşdırma üzrə də ictimai müzakirə təşkil etmək niyyətindədir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**